# Ağdam: gələcək naminə quruculuq

**Cəbhə bölgəsində yaşayan insanlara daim diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyev respublikanın hər bir regionu, hər bir rayonu və kəndinin problemlərini diqqət mərkəzində saxlamağı tövsiyə edir və bunu öz çıxışlarında qeyd edir: "...Azərbaycanda inkişaf dayanıqlıdır və uğurludur. Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək. Qarşıda duran vəzifələr hələ çoxdur. Biz bütün problemləri, insanları narahat edən məsələləri həll etməliyik. Həm Bakının, həm böyük şəhərlərin, ən xırda kəndin də problemi diqqət mərkəzində olmalıdır".**

Bu tövsiyələri fəaliyyət proqramı kimi qəbul edən rayon icra hakimiyyəti əhalini narahat edən məsələlərin həllinə xüsusi diqqət yetirir.

Qədim tarixin izini yaşadan və bu gün müasirləşən Xındırıstan kəndi əhalisinin sayına görə rayonun ən iri yaşayış məntəqələrindən biridir. Hazırda bu kənddə 7 min nəfərdən çox əhali yaşayır. Son bir il ərzində kənddə tikinti-quruculuq işləri geniş vüsət alıb, dini-mədəni tədbirlərin keçirildiyi binalar əsaslı təmir olunub, küçələr qaydaya salınıb. Hazırda kənddə yeni park salınır.

Bir hektara yaxın sahəni əhatə edən parkın ərazisində mişar daşlarından hasarlar tikilərək aqlay və mozaika daşları ilə üzlənib. Fəvvarəli hovuz, sakinlərin istirahəti üçün oturacaqlar, söhbətgahlar və gecə işıqlandırılması quraşdırılıb, ağac və bəzək kolları əkilib. Hazırda parkın ərazisində süni şəlalə inşa edilir, piyadaların hərəkəti üçün əraziyə tamet daşlar döşənir.

Parkın ərazisində əvvəllər məişət evi kimi fəaliyyət göstərən köhnə ikimərtəbəli bina da qəzalı və istismara yararsız olduğu üçün əsaslı şəkildə təmir edilib.

Qeyd edək ki, Xındırıstan kəndində ötən ildən başlayaraq, geniş tikinti-quruculuq işləri aparılır. Bir neçə gün əvvəl 50 çarpayılıq kənd xəstəxanası əsaslı təmir olunaraq istifadəyə verilib. Qəzalı vəziyyətə düşən tarixi məsciddə bərpa işləri aparılıb.

Bundan başqa Paşabəyli kəndində 40 yerlik uşaq bağçası inşa edilir. Bağçanın tikintisi Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi qrant yardımı proqramı" çərçivəsində həyata keçirilir. Hazırda binada hörgü işləri aparılır. Uşaq bağçasının iyul ayında istifadəyə verilməsi nəzərdə tutulur.

Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov söhbət zamanı bildirib ki, kəndlərdə və Quzanlı qəsəbəsində əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması, əhaliyə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi və digər işlər davamlı olaraq həyata keçirilir. Problemlərin əsaslı şəkildə həll edilməsi üçün bir çox layihələrin icrası nəzərdə tutulub.

Məcburi köçkünlərin sonradan məskunlaşdıqları Quzanlı qəsəbəsi və Ayaq Qərvənd kəndləri ərazisindəki məntəqələrdə elektrik xətləri kortəbii şəkildə çəkilib, qazlaşma isə aparılmayıb. Artıq məcburi köçkünlərin elektrik enerjisi və təbii qazla bağlı bu cür problemlərinin həlli üçün layihənin icrasına başlanılıb.

Məcburi köçkünlər cəbhəyanı ərazilərdə elektrik enerjisi və təbii qaz təchizatının yaxşılaşdırılmasına dair layihəyə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirirlər. 230 məcburi köçkün ailəsinin müvəqqəti məskunlaşdığı yaşayış məntəqələrində elektrik enerjisinin dayanıqlığının və keyfiyyətinin yaxşılaşdırılması üçün işlərə başlanılıb.

Ağdamlılar gələcək naminə başlanan quruculuq işlərində fəal iştirak edirlər. Onların ən böyük arzusu işğaldan azad ediləcək yurd yerlərinə qayıtmaqdır. Qocalı-cavanlı hamı Ali Baş Komandanın əmrini gözləyir.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika.- 2020.- 14 mart.- S.6.